# Xalqları, millətləri birləşdirən multikultural bayram

## *Azərbaycanda yaşayan bütün xalqlar Novruzu böyük sevgi ilə qeyd edirlər*

Hər il olduğu kimi, bu il də ölkəmizdə Novruz bayramı böyük təntənə ilə keçirilir. Ümumxalq bayramı olan Novruzu təkcə Azərbaycan xalqı yox, ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri coşqu ilə qarşılayır. Onlar bu bayramı Azərbaycan xalqı ilə birlikdə barış və həmrəyliyin, dostluğun əsas atributu kimi qeyd edirlər. Bayrama öz dəyərli töhfələrini verməklə onu daha da zənginləşdirirlər.



Suraxanı rayonu ərazisində yaşayan rusların bayram sevincini bölüşərkən bunun bir daha şahidi olduq. Yolumuzun bura ilin axır çərşənbəsi axşamı düşməsi onların sevincinə sevinc qatmışdı. Necə deyərlər, hər bir azərbaycanlı ailəsi kimi, onlar da bayram sevincini bizə çatdırır və qonaqpərvərliklərini göstərməyə çalışırdılar.

Qonağı olacağımız evə çatana qədər yol boyu həmsöhbətimiz - “Sodrujestvo” Azərbaycan Respublikası Xalqlarının Həmrəyliyi Cəmiyyətinin Suraxanı rayon təşkilatının sədr müavini Vahid Quliyev rayonda yaşayan ayrı-ayrı xalqların, millətlərin nümayəndələri, onların müstəqil fəaliyyət göstərən təşkilatları haqqında məlumat verdi. Bildirdi ki, ötən əsrin 90-cı illərindən fəaliyyət göstərən “Sodrujestvo” Azərbaycanda yaşayan bir çox xalqların nümayəndələrinin təşəbbüsü ilə yaradılıb. Cəmiyyətin təşkilatçıları arasında ruslar, azərbaycanlılar, ukraynalılar, ləzgilər, tatarlar və digər xalqların nümayəndələri var.

Suraxanı rayonu tarixən fəhlə-neftçi rayonu olub. Ona görə də buradakı dostluğun, həmrəyliyin, necə deyərlər, tarixi qədimdir. Azərbaycanda bütün xalqlar üçün yaradılan indiki bərabər, münbit şərait bu birliyi daha da möhkəmlədib. Rayon ərazisində yaşayan ukraynalılar, slavyanlar, tatarlar və digər xalqların nümayəndələri azərbaycanlılarla qaynayıb-qarışıb. Onlar Azərbaycanı sevdikləri kimi, onun adət-ənənələrini də çox bəyənirlər. Xüsusən də Novruzu böyük coşqu, təntənə ilə qeyd edirlər, lap bizim kimi...

Bir rus əsilli Alla Qiyin mənzilində bir neçə dəqiqəlik qonaq olduq. Həqiqətən, burada özünü azərbaycanlı ailəsindəki kimi hiss edirsən. İlk növbədə qonaqpərvərlik, mehribanlıq diqqətimizi cəlb etdi. Evdəki bayram ab-havası, ailə üzvlərinin üzündəki xüsusi təbəssüm, eynilə azərbaycanlı ailələrdə olduğu kimi gözəl təamlarla bəzədilmiş süfrə də diqqətimizdən kənarda qalmadı. Şəkərbura, paxlava, müxtəlif çərəzlər, rənglənmiş yumurtalar, aş və digər dadlı nemətlər, bir sözlə, bayram masasının üstündə barmaq basmağa yer yox idi.

A.Qiy deyir ki, özlərini burada ulu babalarının yurdundakı kimi hiss edirlər: “Buranın insanları kimi, adət-ənənələri, bayramları da bizə doğmadır. Azərbaycanda çox rahat yaşayırıq və hərtərəfli qayğı ilə əhatə olunmuşuq. Biz də Azərbaycan vətəndaşı olaraq burada gedən böyük inkişaf və quruculuq prosesində fəal iştirak edirik. Təkcə Novruz bayramında yox, digər xüsusi günlərdə də fəalıq və əslində, bu, bizim üçün çox maraqlıdır”.

Alla xanım azərbaycanlı qonşularından razılıq etməyi də unutmadı. Onların bayramlarda yaxınlarını, qohumlarını yad etməsinə xüsusilə diqqət çəkdi: “Azərbaycan xalqının çox gözəl bayram ənənələri var. Biz neçə ildir burada qonşuyuq. Ola bilməz ki, belə bir gündə qonşuluqda azərbaycanlı ailəsində qazan asılsın, ondan bizə pay verilməsin. Qonşularımızdan aztəminatlı olanı da var. Amma bayramlarda heç kim beləlırini unutmur, mütləq sovqat göndərilir. Övladlarımız da eyni qaydada ilə böyüyürlər. Azərbaycanlı uşaqlarla birlikdə bayram adətlərini qeyd edirlər - papaq atırlar, yumurta döyüşdürürlər, tonqal üstündən tullanırlar...”



Azərbaycan Rus İcmasının Suraxanı rayon üzrə sədr müavini Tatyana Hüseynovanın ailəsi ilə bayram sevincini bölüşərkən də oxşar fikirləri eşitdik. O, deyir ki, icmanın Suraxanıda və paytaxtın digər rayonlarında, eyni zamanda, regionlarda təşkilatları, digər millətlərdən olan nümayəndələri var. Bu gün onların da hər biri böyük sevgi ilə Novruzu qeyd edirlər.

T.Hüseynova azərbaycanlı ilə ailə qurub. Ömrünün yarısından çoxunu burada yaşayıb, artıq övladları, nəvələri var. Deyir ki, Azərbaycan və rus mətbəxlərini birləşdirib daha da gözəl etdiyi kimi, bayram adətlərini də birləşdirərək rəngarəng ediblər. Hər il bayramda övladları və digər yaxınları ilə bir ocağa yığışıb bu gözəl günü qeyd edirlər.

* * *

Bütün bunlar bir daha təsdiq edir ki, yüz illər boyu yüksək mənəvi-əxlaqi və etnik-dini tolerantlıq ənənələrinin qorunub saxlandığı Azərbaycanda ayrı-ayrı xalqlar, dinlər və etiqadlar arasında qarşılıqlı hörmət, etimad və qardaşlıq münasibətləri mövcuddur. Onlar bütün əlamətdar günləri, o cümlədən multikultural ənənələrin daşıyıcısı olan Novruz bayramını böyük coşqu ilə qeyd edirlər. Bu baxımdan Novruz həm də onların bir araya gəlməsində mənəvi bağlantı olaraq geniş imkanlar yaradır.

***Elnur HADIYEV,***
***“Azərbaycan”***